**TƏSVİRİ SƏNƏT**

**UOT 746.677**

**Məmmədhüseyn Allahqulu oğlu Hüseynov**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Professor**
**E-mail: mamedhuseyn_1967@yahoo.com**

# XALÇAÇILIQDA İP (İPLİK) ƏLDƏ EDİLMƏ ÜSULLARI

**Xülasə**: Zaman-zaman yun, pambıq və ipəyin iplik olaraq əldə edilməsi prosesi çətin bir yol keçmişdir. Bu da insanların dünyagörüşündə “ip” kultuna müxtəlif münasibət formalaşdırmışdır. Xalçaçılıqda ipəyirmə ilə bağlı meydana çıxan digər yeni, müvafiq alətlər də rəmzi müstəvidə naxışlar toplusunda yer alır. Azərbaycan xalçaçılığında “kələf” sözü hissələrə bölünmüş boyanacaq ip mənasını da ifadə edir. Hər bir ipin ucu öz kələfinin belinə sarılaraq bağlanır ki, boyanan zaman dolaşığa düşüb qarışmasın və boyandıqdan sonra da asanlıqla yumaqlansın. Əl əməyinin bu üsulları əsrlərdən-əsrlərə keçərək təkmilləşmişdir.

**Açar sözlər:** xalça, ip, kələf, texnika, ornament, naxış

İpin əldə edilməsi toxuculuq materialının xammal şəklində əldə edilməsindən sonra başlayır. Ən qədim dövrlərdən bəri ipin düzəldilməsi təbii proseslər əsasında öyrənilmiş və xammaldan tədarükə doğru inkişaf yolu keçmişdir. Texniki olaraq hansı tarixdə və harada meydana çıxması dəqiq məlum deyildir. Ancaq ip emalı üçün ən qədim əmək alətlərinin Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilməsi bu ərazini toxuculuğun ilk məkanlarından biri kimi təqdim edir. İlk vaxtlar əl ilə düzəldilən eşmə və burma iplər çox böyük zəhmət hesabına başa gəlirdi. “İy” və “tağalaq” adlı əmək alətlərinin kəşfi isə texniki dönüş yaratmaqla xammaldan ipə keçidin əsasını qoydu. Yuyulub təmizlənmiş yunun didilib dartılaraq tağalağa ötürülməsi sümük, ağac və ya saxsıdan düzəldilmiş seyrək dişli “daraq” alətindən istifadə etməklə mümkünləşmişdir. Yundan ipə keçidin texniki prosesləri hələ qədim dövrlərdən təkmilləşməkdə davam etmişdir. Lakin bütün hallarda yunu ip halına salmaq üçün altı şərtin öncədən olması vacib sayılmaqdadır. Bu şərtlərin başlıcası yunun yaxşıca yuyulması, çubuqla döyəclənməsi və qurudulmasıdır. Sonrakı şərtlər isə qurumuş yunun xüsusi nazik çubuqla çırpılması, daranması və yoluşdurulması prosesidir. Qırxımdan sonra yunu bu mərhələlərdən keçirməklə “iy” alətindən istifadə edərək gərilmə, eşilmə və yoğunluq dərəcəsinə görə ip əyirmək üsulu mümkünləşir. Əsrlər boyu ip əldə etməyin bu üsulu dəyişməmiş, lakin texniki cəhətdən alətlərin təkmilləşdirilmiş varisləri hesabına məhsuldarlıq sürətlə artmışdır.

"İp" sözü bitkilərdən və ya yundan əmələ gələn materialın adıdır. Bu sözün etimologiyası maraq doğurur. Birhecalı olduğundan qədim sözlərdən hesab olunur. Səslənməsi onun mənşə etibarilə qədim oğuz türkcəsində olduğuna şübhə yaratmır. Müasir Azərbaycan dilində "ip" sözü iplik kimi də keçir.

İp düzəltmək əmək alətindən asılı olmayaraq, məzmun etibarilə bitki və heyvanat aləminin xüsusiyyətlərini əhatə edir. Sözün "i" səsi tərkib etibarilə incə və ya incik hərəkəti, "p" səsi isə sıxlığı, təzyiqi (dartılmanı) bildirir [1, s.183-184]. Bu baxımdan "ip" sözü uzadan, aralayan, artıran mənasına gəlir. "İf" səslənməsi də "ip"in variantıdır.

Azərbaycan xalq deyimlərində "ip" sözünün özünəməxsus yeri vardır. Məsələn; "iplə toxumaq", "ip vurmaq", "ipə (ipə-sapa) yatmamaq", "ipə-sapa düzmək", "ipə-sapa yatmaq", "ipini boşaltmaq" (buraxmaq), "ipini çəkmək" (yığmaq, yığışdırmaq), "boğazına ip salmaq" [2, s.64] və bu kimi başqa kəlmələr işlədilməkdədir. Yəqin ki, bu deyimlər ipin möhkəm, zərif, incə, dayanıqlı, elastik, çoxburumlu, qalın, nazik, sap kimi, tük kimi və digər xüsusiyyətlərini ifadə etmək üçün seçilmiş nümunələrdir.

İp düzəltmək üçün ibtidai alətlər və onların təkmilləşməsi əsrlərdən-əsrlərə keçərək formalaşmışdır. İpi əmələ gətirən qədim əmək alətləri müxtəlif materiallardan düzəldilsə də, onların işlədilmə funksiyası indi də dəyişməmişdir. Hətta həmin alətlərin adlanmaları etimoloji olaraq öz xüsusiyyətlərini qorumuşdur. Bu alətlər, əsasən, yun darağından, iydən, tağalaqdan və cəhrədən ibarətdir.

"Daraq" sözü qədim oğuzcada "tarqak" [2, s.54] kimi keçir. İki hecadan ibarət olan bu sözün "tar" hissəsi, "tel", "sap", "ip" və "sim", "qak" isə (qədim şumercə) "keçirmək" mənasına gəlir [3, s.167].

Yun və ya kətan darağı quruluşuna görə dar milləri, yaxud dişləri arasından keçirilən şeylərin düzəldilməsi, həmçinin təmizlənməsi funksiyasını daşıdığı üçün həm də rəmzi alətlərdən biridir. Onun daşıdığı rəmzi mənalar isə təbiətin özündən qaynaqlanır; əl və ayaq barmaqlarının düzülüşü, bəzi quşların başında yelpiyə oxşar pipiklərin olması (şanapipik), quru və daşlı yamaclarda bitən daraqotu adlı ot bitkisi və s. təbiətin darağaoxşar nümunələrindən hesab olunur. Yun darağını ifadə edən müxtəlif elementlərin varis nümunələrinin təsvirləri rəmzi işarələr sistemində indi də yer tutur.

Qədimdən bəri Azərbaycanda yun ipliklər hazırlayan sənətkarlar daraqçıların (muzdla yun darayan adam) işinə daha çox diqqət etmişlər. Bu baxımdan yun daramaq sənət səviyyəsində qiymətləndirilirdi. Yaxşı daranmış yun iy alətindən asanlıqla keçərək sahmanlı ipin əldə edilməsinə şərait yaradır. Yunun əyrilmək üçün iyə düzgün ötürülməsi bu işin əsas və vacib əməllərindən

hesab olunur. İy aləti quruluşuna görə hər iki ucu şiş, 25-30 sm uzunluğunda, müxtəlif materiallardan hazırlana biləcək çubuqdur.

Mahmud Kaşğarinin "Divani lüğət-it-Türk" əsərində "iy" sözü "ig" və "yig" kimi keçir [2, s.150].

"İz" – "iy"in variantıdır, çünki izləmə prosesində də seçmə, arama əməliyyatı icra olunur [4, s. 22].

"İy" – ara, axtar, seç deməkdir. Məsələn, iynə sapa iz arayır, yol axtarır (açır). İy həm də ip əyirən iri iynəyə deyilir. "İyin dükçəli olsun" alqışı da bu zəmində bir nümunədir [4, s.10].

"İy" sözü birhecalı olub, iki hərfdən ibarətdir. "İ" səslənməsi incik və incə hərəkəti, "y" səslənməsi isə bütövdən çıxmağı bildirir [4, s.183].

Azərbaycan ərazisində ən qədim iy alətləri arxeoloji qazıntılar zamanı tək-tək və ya tağalaq aləti ilə birgə tapılır. İpəyirmə prosesinin ən qədim alətləri hesab olunan iy və tağalaq toxuculuq fəlsəfəsinin məntiqi meyarları hesab olunmaqla bərabər, əcdadlarımızın mistik düşüncəsində də yer almışdır.

Təbiətdə bəzi bitkilərin "iy"ə bənzər iynəsi mələklərin tale toxuyan aləti kimi təbərrük hesab edilirdi. Bir çox tayfalarda həmin bitkilərin (quşqonmaz, tikan və s.) iynəsi indi də nəzər və gözdəyməyə qarşı müxtəlif yerlərə sancılır və stilizə olunmuş naxış nümunələri xalçaları bəzəyir.

İy və ya ip əyirənlər barəsində dünya mifologiyasında bədiiləşmiş müxtəlif mistik mətnlər yer almışdır. İpəyirmənin qədim insanların həyatına bir inanc şəklindəmifik güclərin təyin etdiyi mələklər vasitəsilə daxil olması artıq qəbul edilirdi. Azərbaycan xalçaçılığında da ip və ipəyirmə mərasimlərinin zənginliyinə baxmayaraq, onların hansı ayinlərin vasitəsilə həyata keçirilməsi və mərhələlərinin mifoloji tərəfi tədqiq olunmamış, həmçinin unudulmaqda davam etmişdir.

Hələ qədim zamanlardan əyrilmiş ip toxunacaq şeylərin taleyinə daxil olaraq hörmə və ya torşəkilli həyat mətnini formalaşdıran ünsür kimi qəbul olunurdu.

Əllərində iy tutub tale toxuyan moiralar (yunan mifologiyasında tale mələyi) Ay ilahələri hesab olunurdu. Homer onları "həyat ipini əyirənlər" adlandırmışdır. Həmin ilahələrin birinin adı Klotho, "ip əyirən" [5, s.169] deməkdir. Qədim türklərinin mifoloji inancında da buna bənzər "Umay" adlı mifik varlığın olduğu bildirilir.

Azərbaycan mifologiyasında Umay Ayla bağlı yaradıcı ruhdur. Qədim inanclarda Umayın doğum hadisəsi zamanı yaradıcı ruhla birlikdə təzahür etməsi, onun (moiralar kimi) yaranan insan taleyini hörmək vəzifəsini icra etdiyi əks olunur. İndi də bu mistikaya həm xalçalarda həm də təsviri sənətdə rast gəlmək mümkündür.

Tale hörən ilahə sonrakı mərhələdə "ay"ı ifadə etməklə zaman və təqvim ilahəsi kimi ortaya çıxır [6, s.190-191]. Ayın zaman və təqvim rəmzi olduğu məlumdur. O öz hərəkəti ilə zaman və təqvimi bir ip kimi əyirir.

Qədim mifoloji mətnlərdə zaman və ya Ayın insanlara bir heyvan (qurd, it, xoruz və s.) vasitəsilə mesaj göndərməsi "ölüm və yaranma" haqqındakı xəbərlər "əyrilmiş ipin" məsafəsini xatırladır.

Bu iki dünya arasında qurulan bağ düşüncəsi qədim türklərin inanc sistemində ilk insanın "ana rəhmi" ilə "göbək ipi" anlayışında da öz əksini tapır.

Azərbaycanda "ip" və "ipəyirmə"nin semantik anlamları arasında dölləyici missiya ilə əks olunan bir nümunə də yunçuluqla bağlı olub, ip əyirən zaman oxunan dualar idi. Bundan başqa yunun dartışdırılması ilə bağlı indi də xalçalarımızda "daraq", "yun darağı", "qarmaq", "qarmaqlı", ən başlıcası isə "damğa" kimi tanınan "pıtraq" adlı naxışlar ipəyirmə mədəniyyətini bədii dildə əks etdirməkdədir.

Pıtraq – tikanlı, çəyirdəyi ətrafında çoxlu sayda qarmaqcıqları çıxmış ovalşəkilli quruluşa malik yabanı çöl bitkisidir. Pıtraqlar yatağa qayıdan qoyunların yununa yapışır və onları dartışdıraraq liflərini uzadırlar. Bu hadisə qoyunçuları yunun dartılma və daranma xüsusiyyəti ilə tanış edən təbii hadisələrdən biri kimi yaddaşlarda qalmışdır. Pıtraqlar xalça naxışları arasında bir çox rəmzi mənalar daşısa da, əsasən, qoyun və yunçuluq təsərrüfatının bədiiləşmiş varisidir.

Əl əməyi hesabına, kustar üsulla ip əyirən əcdadlarımız iy və tağalağın daha mükəmməl, həm də tez işləməsi üçün "cəhrə" adlı mexaniki qurğunu kəşf etdilər. Əsrlər keçdikcə metal çubuqdan olan iy aləti bir ucu yoğun, digər ucu isə getdikcə nazikləşərək təkmilləşməkdə davam etdi. Sonralar ondan tağalaqla birlikdə cəhrəyə yerləşdirilib, cəhrənin çarxı vasitəsilə fırlandırılaraq, yunu ip halına salıb ona tov vermək üçün daha səmərəli yeni dəzgahlar kəşf olunana qədər istifadə olundu.

Cəhrənin funksiyası daranmış və əlçimlənmiş yun və ya pambığın əl ilə eşilib, iyə dolanmaqla ip dükcəsini meydana gətirməkdən ibarətdir. Lakin bu alətin faydası təkcə ipəyirmənin inkişafına təsir etmədi, həm də bədii-simvolik düşüncədə fəlsəfi ifadə vasitəsi kimi yer aldı. İndi də ədəbi və təsvir simvollarının içərisində "cəhrə"nin "çarx" olaraq kosmoqonik fikirlərə bənzərlik verən obrazı qalmaqdadır.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan etnoqrafiyası. 3 cilddə. – Bakı: Şərq-Qərb. – 2007, I cild. 544 s.
2. Qurbanov, A. Damğalar, rəmzlər... mənimsəmələr / A.Qurvanov – Bakı: Silver LTD MMC – 2013 – 327 s.

3. Müciri C. Azərbaycan xalçaçılığının texnoloji üsulları / C.Müciri – Bakı: Maarif – 1987 – 200 s.
4. Nəcəf, Ə.N. İnanc simvolları: Tanrı // "Salam Press" qəz., №133 – s.10.
5. Шукуров, Ш.М. Искусство и тайна – Москва: Алетейа – 1999 –247с.
6. Golden P.B. Hazar çalışmaları. Türkçe çev. Egemen. Ç.M. / P.B. Golden – İstanbul: Selenge Yayınları – 2006 – 384 s.

**Мамедгусейн Аллахкулу оглы Гусейнов**

## СПОСОБЫ ПОЛУЧЕНИЯ НИТИ (ПРЯЖИ) В КОВРОТКАЧЕСТВЕ

**Резюме:** Время от времени процесс получения шерсти, хлопка и шелка в качестве пряжи был трудным. Это сформировало различное отношение к культу «нити/пряжи» в мировоззрении людей. Другие новые, актуальные инструменты, появившиеся в ковроткачестве, также включены в коллекцию узоров на символическом уровне. В азербайджанском ковроделии слово «келеф» также означает окрашенную нить, разделенную на части. Конец каждой нити завязывается вокруг своего келефа, чтобы она не запутывалась во время окрашивания и легко стиралась после окрашивания. Эти методы ручного труда совершенствовались на протяжении веков.

**Ключевые слова:** ковер, нить, ножна, техника, орнамент, узор.

**Mammadhuseyn Allahkulu oghlu Huseynov**

## METHODS FOR OBTAINING THREAD (YARN) IN CARPET WEAVING

**Summary:** At times, the process of obtaining wool, cotton, and silk as yarn was difficult. This formed a different attitude towards the cult of "thread / yarn" in the worldview of people. Other new, relevant tools that have appeared in carpet weaving are also included in the collection of patterns on a symbolic level. In Azerbaijani carpet weaving, the word "kelef" also means a colored thread divided into parts. The end of each thread is tied around the waist of her scabbard so that it does not get tangled during dyeing and can be easily washed after dyeing. These manual labor techniques have been perfected over the centuries.

**Key words**: Carpet, thread, scabbard, technique, ornament, pattern.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**